D İ L Ç İ L İ K   A R A Ş D I R M A L A R I

Sentyabr-Dekabr/2021 № 2

UOT: 81.23

ƏDALƏT ABBASOV*

# SADƏ CÜMLƏNİN SEMANTİK KONSEPSİYASI

**XÜLASƏ**

Sintaktik semantika – Sadə cümlənin natamam quruluşunda (strukturunda) daha çox təzahür edir. Təbii ki, hər bir sadə cümlənin struktur tipi komponentinin leksik vahidlərinin ifadə etdiyi mənaların məcmusundan ibarətdir. Lakin bu mənalar sadə cümlənin struktur komponentinin ayrı-ayrılıqda ifadə etdiyi leksik semantikasının məna və qrammatik cəhətdən vəhdətdə təzahür etdiyi obyektiv məna hesab edilir. Sadə cümlənin sintaktik semantikası isə əsasən subyektiv məna sayılır. Çünki yarımçıq (natamam) struktur subyektiv-situativ düşüncə formalaşdırır.Bu da funksional-sintatkik semantikanın məntiqlə bağlılığını əsaslandırır (şərtləndirir). Yəni bu, real (obyektiv) mənadan çox, məntiqi müstəvidə canlandırılan, düşünülən məna anlamına uyğun gəlir.

Hər bir sadə cümlə strukturunda sintaktik semantikanın struktur semantika növü mövcuddur. Sadə cümlə strukturunun çeşidli forması, həm də sintaktik semantikanın rəngarəng tiplərinin təzahürüdür. Struktur semantika – sadə cümlənin müxtəlif quruluşu (formalı) leksik vahidlərinin təklikdə ifadə etdiyi lüğəvi mənaların ümumi məzmuna müvafiq gələn semantik məcmuyu anlamında düşünülən kateqoriyaya (sintaktik-leksik kateqoriyaya) deyilir. Bu, sintaktik semantikanın xüsusi bir növüdür.

Sintaktik semantika – sadə cümləyə məxsus leksik, qrammatik və intonasiya mənalarının semantik toplumudur. Struktur semantikada sadə cümlədə obyektiv formalardan (söz formalardan) doğan mənalar təzahür edirsə, sintaktik mənaların digər növlərində həmin obyektiv mənalarla paralel sintaktik kontekst daxilində olan, lakin subyektiv – məntiqi, yəni natamam struktur (əslində mövcud olmayan) əsasında, tərkibdə komponent olaraq iştirak etməyən söz formalara görə düşünülən mənalar başa düşülür. Bir sözlə, sadə cümlənin sintaktik semantikasının əsas meyarı forma deyil, natamam struktur üzərindən düşünülən məzmundur.

**Açar sözlər:** *Semantik konsepsiya, semantik komponent, cümlənin paradiqmləri, subyektiv-məntiqi situasiya, sintaktik qat.*

**Giriş**. Cümlənin semantikası mənalar toplusundan ibarətdir. Cümlənin semantikasında üç məna qrupu müəyyənləşdirilə bilər. Bunları müvafiq şəkildə leksik, qrammatik və intonasiya mənaları adlandırmaq məqsədə uyğundur.

I. Leksik semantika – Məlumdur ki, ifadənin leksik mənası onu təşkil edən sözlərin, yəni komponentinin ayrı-ayrı əşyavi mənalarının məcmusundan ibarətdir. Məsələn, Vətəni sevmək və qorumaq hər bir vətəndaşın müqəddəs borcudur – cümləsində leksik mənalar Vətən, sevmək, qorumaq, hər bir, vətəndaş, müqəddəs, borc vahidlərində ifadə olunur.

Nümunəni nəzəri müstəvidən təcrübi göstərişə çevirsək, belə bir əyani leksik-semantik mənzərə formalaşar:




II. Qrammatik semantika – formalaşma struktur vasitələri baxımdan iki cür olur: a) Morfoloji semantika – morfoloji vasitələrin köməyi ilə ifadə olunur. Məsələn sözdəyişdirici (hal, zaman, şəxs, xəbərlik və s.) şəkilçilər, bəzi köməkçi sözlər və s.

b)Sintaktik semantika – söz sırası, konstruktiv mətndə məna əlaqəsi və s. kimi sintaktik vasitələrin köməyi ilə formalaşır. Dağ havası insan orqanizmi üçün daha faydalıdır. Bu cümlədə qrammatik semantika vəhdətdə verilmişdir. Nümunəni struktur – semantik baxımdan təhlil etdikdə - "sı" mənsubiyyət, - dır[4] xəbərlik şəkilçilərinin və üçün, daha köməkçi sözlərinin morfoloji semantikaya, konstruktiv mətndə (dağ havası, insan orqanizmi, faydalı) məna əlaqələri, üzvlərin sıralanması kimi sintaktik hadisələrin isə sintaktik semantikaya məxsusluğunu açıq şəkildə görmək mümkündür. Qeyd etdiyimiz nəzəri mülahizəni praktik formaya çevirsək, belə bir sxem alınar:

* f.ü.f.d., dos. ADPU-nun filologiya fakültəsinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının dosenti, abbasov-edalat@mail.ru




Yuxarıda göstərilən nümunəni eyni qrafik əsasında əyaniləşdirdikdə analoji sxem formalaşır.

Dağ havası insan orqanizmi üçün daha faydalıdır.




II. İntonasiya semantikası – İntonasiya mənalarını formalaşdıran vasitələrin təhlili əsasında mövcud olan **mənalar toplusuna deyilir.** Ümumiyyətlə, intonasiyanın semantikasını təhlil edərkən əsasən sintaktik mənalar məsələsi ilə qarşılaşmalı oluruq.

Sintaktik mənalar – özlüyündə iki mühüm qrupa ayrılır: 1) Sintaktik modal mənalar; 2) Sintaktik struktur mənalar.

**Sintaktik modal və sintaktik –struktur mənalar.** Sintaktik modal mənalara bunlar daxildir: nəqli məna, sual mənası, əmr mənası, nida mənası və bu mənaları formalaşdıran ayrı-ayrı qrammatik vasitələr.

Sintaktik struktur mənalar aşağıdakılardan ibarətdir: tabesizlik mənası (eləcə də bununla bağlı olan aydınlaşdırma, ardıcıllıq, eynizamanlılıq, ziddiyyət -qarşılaşdırma, səbəb-nəticə, bölüşdürmə mənaları); tabelilik mənası (eləcə də buna məxsus qarşılaşdırma, şərt güzəşt, müqayisə mənaları), o cümlədən subyekt mənası, obyekt mənası, əlamət mənası və s.

“Cümlənin semantikasını təşkil edən mənaların üçüncü qrupu hesab edilən intonasiya mənaları, əvvəlcə qeyd edildiyi kim, dildə sabitləşmiş intonasiya formaları vasitəsilə ifadə olunur. Haqqında bəhs edilən hər üç məna qrupu (leksik, qrammatik və intonasiya mənaları)” nisbə-

tən müstəqil olub, bir-biri ilə o qədər də əlaqədar deyildir". [Adilov və b.,2020, s. 341].

Cümlə semantikasının fəaliyyət strategiyasını (konsepsiyasını) müəyyən edən prioritet istiqamətlər aşağıdakılardır:

1) Semantik komponent
2) Cümlənin paradiqmləri

1.**Semantik komponent** – cümlənin məna strukturunu təşkil edən leksik mənalar qrammatik və intonasiya vəhdətindən ibarət tərkibə, bütövə deyilir. Ümumiyyətlə, cümlənin iki struktur təsvirindən geniş bəhs edilir. "Hər bir cümlədə iki qat fərqləndirilir: alt qat və üst qat. Alt qat məna üçün konstituentlər arasındakı münasibətləri özündə ehtiva edir, üst qat isə konkret cümlədə sözlərin sırasına uyğun gəlir. Üst qat alt qatın eyni deyildir, ona görə də alt qatdan üst qata keçid üçün transformasiya qaydaları (TQ) vacibdir. Ali qatdan üst qata keçidi təmin etmək üçün bir neçə qayda tətbiq edilməlidir. Bunun ən sadə tətbiqini biz sual cümləsini düzəldəndə görürük" [Veysəlli:2008 s. 182].

"Sabitləşmiş intonasiya formaları vasitəsi ilə ifadə olunan intonasiya mənalı sadə cümlələrdə transformasiya qaydaları daha çox aktivliyi ilə diqqəti cəlb edir. Sual intonasiyası, sual ədatı və əvəzlikləri bu cür sadə cümlə konstruksiyalarının mövcudluq faktına çevrilir" (Veysəlli: 2005,s. 274). Fikrimizi belə bir nümunə əsasında izah edək.

1) Doğru deyiblər, vətən hər şeydən doğma və əzizdir. 2) Hər şeydən doğma və əziz olan, Vətəndir? 3) Vətənin hər şeydən doğma və əziz olduğunu doğru deyiblər!.

Birinci cümlədə "doğru deyiblər" ifadəsi cümlə ilə sintaktik deyil, semantik cəhətdən bağlanaraq aforistik bilgi ifadə edir və nəqli cümlə strukturu formalaşdırır. İkinci cümlədə eyni aforistik konstruksiyanın sual versiyası təzahür edir. Üçüncüdə isə cümlənin ümumi aforistik semantikası dəyişməsə də "doğru deyiblər" ifadəsinin struktur-sintaktik çevrilməsi sintaktik-semantik mənanın vəhdətini yaratmaqla, həm də həyəcanlı orfoepik gücünü də artırır.

**Nəticə**. Deməli, intonasiya müxtəlifliyi sintaktik-semantik rəngarəngliyə səbəb olur. "Eləcə də söz sırasının inversiyası, hətta məntiqi vurğu, semantik komponentin mövcud olması işində transformasiya qaydalarından aktiv istifadə üçün vacib amillərdəndir. Qənaətimizi aşağıdakı cümlələrlə əsaslandıraq" [Veysəlli:2005, s. 463).

Vətənin müdafiəsində ən mühüm məsələ nizam-intizamlı bir ordunun olmasıdır. 1) Ən mühüm məsələ nizam-intizamlı bir ordunun olmasıdır. 2) Nizam-intizamlı bir ordunun olması Vətənin müdafiəsində ən mühüm məsələdir.

Göründüyü kimi, məntiqi vurğunun mövqeyinin xəbərə görə dəyişməsi semantik pozisiyanın müxtəlifliyini şərtləndirir.

"Struktur dəyişikliyi semantik komponentin polifunksionallığını səciyyələndirən cəhətlərdəndir. Polisemantik vahidlərin və onlara köməkçi vasitələrin əlavəsi əsasında formalaşan ekspressiv semantika məhz eyni sintaktik-semantik və struktur-semantik əməliyyatın nəticəsində təzahür edir" [Veysəlli:2005, s. 288).

2. **Cümlənin paradiqmləri** – Sadə cümlənin struktur sxeminin formalar sistemi, bütün formalarının məcmusu kimi başa düşülür. Məsələn Zeynəb oxudu – Zeynəb oxumuşdu – Zeynəb oxuyurdu – Zeynəb oxuyacaqdı – Zeynəb oxumalı idi – Zeynəb oxuyası idi – Zeynəb oxusa idi – Zeynəb oxuyan deyil – Zeynəb oxumaz – Zenəb oxumamalıdır – Zeynəb oxusun – Qoyun Zeynəb oxusun –Kaş Zeynəb oxuyaydı – Zeynəb oxuyasıdır və s.

Cümlənin semantik konsepsiyasında semantik komponent əsasən nəzəri mövqeyə malik olduğu halda, cümlənin paradiqmləri bu sırada birmənalı praktik səciyyə daşıyır.

"Əsas odur ki, bir cümləyə bir struktur yox, bir neçə struktur, özü də müxtəlif abstraksiyalı struktur dərəcələri şamil edilə bilər. Söz sırası iyerarxik əlaqələr sintaktik strukturların reallaşma formasını təşkil edir" [Veysəlli:2008, s. 183).

**ƏDƏBİYYAT**

1.Adilov M.İ., Verdiyeva Z., F.Agayeva. İzahlı dilçilik terminləri. "Maarif", Bakı – 2020, 361 s.
2. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları (II) "Mütərcim", Bakı – 2008, 307 s.
3. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları (I). "Təhsil", Bakı – 2005, 342 s.
4. Veysəlli F.Y. Dilçilik ensiklopediyası. "Mütərcim", Bakı – 2006, 514 s.
5. Rəcəbli Ə.Ə. Struktur dilçilik. "Nurlan", Bakı – 2003, 515 s.

**Adalat ABBASOV**

## THE SEMANTIC CONCEPT OF A SIMPLE SENTENCE


### SUMMARY

Syntactic semantics - manifests itself more in the incomplete structure of a simple sentence. Of course, the structural type of each simple sentence consists of a set of meanings expressed by the lexical units of the component. However, these meanings are considered to be the objective meaning, which is expressed in the unity of meaning and grammar of the lexical semantics, expressed separately by the structural component of a simple sentence. The syntactic semantics of a simple sentence is mainly subjective.

After all, the incomplete structure forms the subjective-situational thinking that justifies the condition of the functional-syntactic semantics of logic. That is, it corresponds to a meaning that is inspired and thought out on a logical level, but not a real (objective) meaning.

There is a type of structural semantics of syntactic semantics in every simple sentence structure. It is a variety of forms of simple sentence structure, as well as a manifestation of different types of syntactic semantics. Structural semantics is a category (syntactic-lexical category) in the sense of a semantic aggregate corresponding to the general content of lexical meanings expressed by the lexical units of different structures (forms) of a simple sentence. This is a special type of syntactic semantics.

Syntactic semantics is a semantic set of lexical, grammatical and intonational meanings of a simple sentence. In structural semantics, meanings arising from objective forms (word forms) appear in simple sentences, while in other types of syntactic meanings, word forms that are within the syntactic context parallel to those objective meanings but based on subjective-logical, ie incomplete structure (non-existent) components the meanings understood are understood. In short, the main criterion of the syntactic semantics of a simple sentence is not the form, but the content thought through the incomplete structure.


**Key words:** *Semantic concept, semantic component, sentence paradigms, hierarchical connection, subjective-logical situation, syntactic layer.*

**Адалат АББАСОВ**

## СЕМАНТИЧЕСКОЕ ПОНЯТИЕ ПРОСТОГО ПРЕДЛОЖЕНИЯ


### РЕЗЮМЕ

Синтаксическая семантика - больше проявляется в неполной структуре простого предложения. Конечно, структурный тип каждого простого предложения состоит из набора значений, выраженных лексическими единицами компонента. Однако эти значения считаются объективным значением, которое выражается в единстве значения и грамматики лексической семантики, выраженной отдельно структурной составляющей простого предложения. Синтаксическая семантика простого предложения - это в основном субъективное значение.

Ведь неполная структура формирует субъективно-ситуативное мышление, что обосновывает условие связи функционально-синтаксической семантики с логикой. То есть он соответствует смыслу, который одушевлен и продуман на логическом уровне, а не реальному (объективному) смыслу.

В каждой простой структуре предложения есть свой тип структурной семантики синтаксической семантики. Это множество форм простой структуры предложения, а также проявление разных типов синтаксической семантики. Структурная семантика - категория (синтаксически-лексическая категория) в смысле семантической совокупности, соответствующей общему содержанию лексических значений, выражаемых лексическими единицами различных структур (форм) простого предложения. Это особый тип синтаксической семантики.

Синтаксическая семантика - это семантический набор лексических, грамматических и интонационных значений простого предложения. В структурной семантике значения, возникающие из объективных форм (словоформ), появляются в простых предложениях, в то время как в других типах синтаксических значений словоформы, которые находятся в синтаксическом контексте параллельно этим объективным значениям, но основаны на субъективно-логических, т.е. понятые значения понятны. Короче говоря, главный критерий синтаксической семантики простого предложения - не форма, а содержание, продуманное через неполную структуру.


**Ключевые слова:** *семантическое понятие, семантический компонент, парадигмы предложений, субъективно-логическая ситуация, синтаксический слой.*